

# Barak OBAMA: "Azərbaycan qlobal nüvə təhlükəsizliyi arxitekturasına qətiyyətli dəstək nümayiş etdirir"

# ABŞ Azərbaycanı regionda sülhün və təhlükəsizliyin təmin olunmasında əsas tərəfdaşı hesab edir

**Prezident İlham Əliyevin inamla davam etdirdiyi yeni neft strategiyasının nəticəsi olaraq müstəqil respublikamız nəinki enerji müstəqilliyini təmin etmiş, eyni zamanda Avropanın enerji təhlükəsizliyinin başlıca təminatçılarından birinə çevrilmişdir. Bunun nəticəsi kimi ölkəmizin dünya miqyasında geosiyasi önəmi və beynəlxalq nüfuzu yüksəlmişdir. Azərbaycanın qlobal layihələrin həyata keçirilməsində əsas tərəf kimi beynəlxalq iqtisadi-siyasi proseslərdə aparıcı qüvvəyə çevrilməsi rəsmi Bakının mövqelərinin güclənməsi ilə müşayiət olunur.**

NUCLEAR SECURITY SUMMIT
WASHINGTON 2016

Dünya miqyasında əsas enerji mənbələrinə nəzarət uğrunda rəqabətin gücləndiyi, enerji təhlükəsizliyi məsələsinin ciddi şəkildə gündəmə gəldiyi indiki şəraitdə respublikamızın bu sahədə öncül mövqelərə çıxması faktı danılmaz reallıq kimi diqqəti çəkir. Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri dünya miqyaslı layihələr olmaqla, Azərbaycanın enerji təhlükəsizliyinə geniş imkanlar açıb. Bu layihələr eyni zamanda respublikamızın müstəqilliyini daha da möhkəmləndirir, regionda müstəqil siyasət aparmasını təmin edir. Son 13 ildə uğurla gerçəkləşdirilən yeni neft strategiyası sayəsində Azərbaycan bölgədə hansısa ölkədən enerji asılılığı olmayan, tələbatını daxili imkanlar hesabına ödəməyə qadir yegənə respublikadır.

Azərbaycan hazırda mühüm geosiyasi məkan kimi regionda sülhün və təhlükəsizliyin təmin olunması üçün dayaq nöqtəsi, ən perspektivli tərəfdaş hesab edilir. Prezident İlham Əliyev konstruktiv, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan, regional və qlobal miqyasda sabitliyə xidmət edən siyasi xətt yürüdür. Beynəlxalq aləmə çoxşaxəli inteqrasiyanın təmin olunması, iqtisadi və geostrateji maraqların ödənməsi, vətəndaşların təhlükəsiz yaşayışının təmin olunması həyata keçirilən xarici siyasətin prioritet məqsədləridir.

Prezident İlham Əliyevin ABŞ-ın paytaxtı Vaşinqtonda bu gün başlayacaq IV Nüvə təhlükəsizliyi üzrə Beynəlxalq sammitə dəvət edilməsi də Azərbaycanın beynəlxalq mövqeyinə verilən yüksək qiymətdir. Bu sammit dünyanın nüfuzlu dövlətlərinin rəhbərlərinin təhlükəsizliklə bağlı mövqelərini öyrənən xüsusi əhəmiyyətli bir tədbirə çevrilib. ABŞ Prezidenti Barak Obama tərəfindən Azərbaycan Prezidentinə dəvətin göndərilməsi ölkəmizin beynəlxalq aləmdə qazandığı nüfuzundan xəbər verir. Bu həm də Azərbaycanın qlobal miqyaslı təhlükəsizliyə verdiyi töhfənin qiymətləndirilməsidir. Azərbaycan Prezidenti Administrasiyasının rəhbərinin müavini, xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov bildirib ki, Prezident İlham Əliyev Vaşinqtonda nüvə təhlükəsizliyi üzrə sammitdə Azərbaycanın nüvə təhlükəsizliyi sahəsində gördüyü işlər və qarşıda duran vəzifələrlə bağlı çıxış edəcək: "Bu sammitin ikinci tərəfdən əhəmiyyəti ondan ibarətdir ki, orada müxtəlif görüşlər, danışıqlar olur. Həmin danışıqlar nəticəsində də ikitərəfli münasibətlərin inkişafı ilə bağlı irəliyə addımlar atılır".

Xatırladaq ki, ABŞ Prezidenti Barak Obama 2015-ci il dekabrın 3-də dövlət başçısına ünvanladığı dəvət məktubunda yazıb: "Azərbaycan qlobal nüvə təhlükəsizliyi arxitekturasına qətiyyətli dəstək nümayiş etdirir. Ümidvaram ki, Azərbaycan nüvə və radioloji töküntülərinin qadağası üçün xüsusi səylərini davam etdirəcəkdir".

2010-cu ildə ABŞ Prezidenti Barak Obamanın təşəbbüsü ilə keçirilən ilk sammitdən sonra dünyada nüvə təhlükəsizliyin təmin olunması sahəsində bir çox mühüm işlər görülüb, 2012-ci ilin martında Koreya Respublikasının paytaxtı Seulda Nüvə Təhlükəsizliyi Sammitinin birinci plenar iclası, 2014-cü ilin martında isə Haaqa şəhərində (Niderland) III Nüvə Təhlükəsizliyi Sammiti keçirilib. Bu mötəbər sammitlərdə Azərbaycanın da iştirakı ölkəmizin dünya miqyasında nüfuzunun artdığına daha bir sübutdur. Qeyd edək ki, nüvə təhlükəsizliyi sammiti XXI əsrdə beynəlxalq birlik üçün ciddi təhlükə yaradan nüvə terrorçuluğunun qarşısını almağa həsr olunan yüksək səviyyəli zirvə görüşüdür. Əllidən çox ölkənin dövlət və hökumət başçılarının, müxtəlif beynəlxalq təşkilatların rəhbərlərinin iştirak etdikləri sammitdə nüvə təhlükəsizliyinin əsas məsələləri, o cümlədən dünyada təhlükəli nüvə materiallarının sayının azaldılması, radioaktiv mənbələrin təhlükəsizliyinin, bu sahədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi və digər məsələlər müzakirə olunur.

III Nüvə Təhlükəsizliyi Sammitində nüvə təhlükəsizliyi sahəsində milli və beynəlxalq tədbirlərin əhəmiyyəti xüsusi vurğulanmışdı. Bu sahədə dünya ölkələri arasında əməkdaşlığın daha da möhkəmləndirilməsinin vacibliyi qeyd edilmişdi. Dünya liderləri bu zirvə görüşündə də nüvə terrorizminin qarşısının alınması üçün uzunmüddətli və səmərəli beynəlxalq əməkdaşlıq məsələsini gündəmdə saxlamışdılar. Zirvə görüşünün sonunda yekun kommünike qəbul olunmuşdu.

Ümumiyyətlə, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin dünyada nüvə təhlükəsizliyinə töhfə verməsi beynəlxalq birlik tərəfindən təqdir olunub. Həmin zirvə görüşündə Azərbaycanın regionda təhlükəsizliyin və sabitliyin qorunmasında olduqca müsbət rol oynadığını deyən Prezident İlham Əliyev bildirmişdi ki, biz regionda və bütün dünyada nüvə təhlükəsizliyinin gücləndirilməsinə aid məsələlər üzrə beynəlxalq təşkilatlar və tərəfdaşlarımızla apardığımız əməkdaşlığın davam etdirilməsi, nüvə və radioaktiv materialların qeyri-qanuni dövriyyəsindən irəli gələn hədələrin azaldılması işinə sadiqik.

Prezident İlham Əliyev dünya siyasətinə əsaslı təsir imkanları olan dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlığı genişləndirmək, inkişaf etdirmək, beynəlxalq təşkilatlarda Azərbaycanın mövqeyini gücləndirmək istiqamətində sistemli fəaliyyət göstərir. Son illər mühüm beynəlxalq tədbirlərin keçirilməsi üçün Bakı şəhərinin seçilməsi, eyni zamanda qlobal əhəmiyyətli tədbirlərə ölkəmizin dəvət olunması Azərbaycanın beynəlxalq nüfuzunu daha da yüksəldir. Bu isə o deməkdir ki, Azərbaycan sülh və əməkdaşlıq paytaxtı kimi tanınmağa başlayıb.

Azərbaycanın geosiyasi çəkisi artır, ölkəmiz regionda sabitləşdirici faktor kimi çıxış edir. Tərəfdaş ölkələrlə qarşılıqlı faydalı münasibətlər regionda sabitliyin və sülhün təmin olunmasına töhfə verir, sülh və əmin-amanlığın, ərazi toxunulmazlığının qorunması istiqamətində prinsipial mövqe nümayiş etdirən Azərbaycanın dünya birliyinə təsir imkanları genişlənir.

*Elnur HACALIYEV,*
*"Azərbaycan"*